# Britaniya Şurasının dəstəyi ilə ölkəmizdə layihələr həyata keçirilir

## Təhsil naziri Böyük Britaniyanın Avropa Qonşuluğu və Amerika üzrə dövlət naziri ilə görüşüb

Fevralın 8-də Təhsil naziri Emin Əmrullayev Böyük Britaniyanın Avropa Qonşuluğu və Amerika üzrə dövlət naziri Vendi Morton ilə görüşüb.

Görüş zamanı Azərbaycan Respublikası ilə Böyük Britaniya arasında təhsil sahəsində əməkdaşlığın hazırkı vəziyyəti və gələcək inkişaf perspektivləri müzakirə edilib. Tərəflər həmçinin, Britaniya Şurasının dəstəyi ilə ölkəmizdə həyata keçirilən layihələr ətrafında fikir mübadiləsi aparıb.

